BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Sosial-siyasi elmlər seriyası 2007

# DÖVLƏTİN MİQRASİYA SİYASƏTİ VƏ ƏCNƏBİLƏR PROBLEMİ

**Ə.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə dövlətin miqrasiya siyasəti və əcnəbilər problemi hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və beynəlxalq praktika əsasında təhlil edilir. Miqrasiya siyasətinin əsas məqsədi kimi miqrasiya proseslərinin tənzimlənməsi sahəsində sabit hüquq qaydasının və qanunçuluğun yaradılması qeyd edilir və bu məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin həlli nəzərdə tutulur: miqrasiya sahəsində müvafiq dövlətdaxili qanunvericiliyin işlənib hazırlanması; miqrasiya proseslərinin proqnozlaşdırılması, siyasi və iqtisadi dəyişikliklər nəzərə alınmaqla effektiv dövlət miqrasiya siyasətinin formalaşdırılması; miqrasiya prosesləri üzərində effektiv dövlət nəzarətinin yaradılması; vətəndaşların yerdəyişmə azadlığı və zəruri iqtisadi stimulun yaradılması kimi hüquqların təmin edilməsi əsasında miqrasiya proseslərinin dövlət idarəçiliyinin həyata keçirilməsi; bütün kateqoriya miqrantların beynəlxalq standartlara müvafiq hüquq və azadlıqlarının təmin edilməsi, onların sosial müdafiəsi məsələlərinin həlli; dövlətin əmək ehtiyatlarına olan tələbatını nəzərə almaqla, xarici vətəndaşların dövlət daxilində muzdlu əməyə cəlb edilməsi üzrə tədbirlərin işlənib hazırlanması və kvotaların tətbiqi; ölkənin yerli əhalisində tolerant düşüncənin formalaşdırılması; ölkə daxilində əmək ehtiyatlarının bölüşdürülməsi üzrə tədbirlərin həyata keçirilməsi, vətəndaşların əmək miqrasiyasının stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması.*

Sivilizasiyanın inkişafının obyektiv reallığı ilə meydana gəlmiş sosial fenomen kimi miqrasiya (lat. *migratio* – məskunlaşma (1)) ayrı-ayrı dövrlərdə fərqli təbiətə malik olmasına baxmayaraq, bəşəriyyəti bütün tarix boyu müşayiət etmişdir. Miqrasiya problemi yeni deyildir. Bu problem bəşər sivilizasiyası tarixində ilk dövlətlərin meydana gəlməsindən etibarən mövcud olmuşdur. Lakin ayrı-ayrı tarixi dövrlərdə bu problem müxtəlif cür həll olunurdu (2).

İbtidai icma cəmiyyəti dövründə insanların yerdəyişməsi əsasən nisbətən əlverişli iqlim şəraiti olan münbit torpaqlar və geniş vadilər axtarışı ilə əlaqədar idi. Buna görə də ilk tayfalar daha çox Asiya, Şimali Afrika, Mərkəzi və Cənubi Avropa ərazilərində məskunlaşırdılar. Əhali miqrasiyasının sonrakı artımı erkən feodal dövlətlərinin yaradılması dövründə nəzərə çarpır. Bu, həmçinin varlanmaq və hakimiyyətini möhkəmləndirməyə can atan varvar tayfalarının hərbi aristokratiyasının yeni torpaqlar ələ keçirməsi və yerli əhalinin tabe etdirilməsi ilə müəyyən olunurdu. Avropalılar tərəfindən Cənubi və Şimali Amerikada, Avstraliyada, Yeni Zelandiyada, Qərbi Sibirdə, Uzaq Şərqdə təsərrüfat üçün əlverişli olan torpaqların coğrafi kəşflərindən sonra miqrasiya prosesləri nəzərə çarpacaq dərəcədə gücləndi. Belə ki, XVII əsrdə İngiltərə,

Fransa, İspaniya, Rusiya və digər Avropa ölkələrindən açıq torpaqlara miqrant axınları yönəldi və bunun nəticəsində koloniya (müstəmləkə) və yeni məskənlərin əsası qoyuldu.

XIX əsrin sonu – XX əsrin əvvəllərində kapitalist sənayesinin inkişafı ilə iqtisadiyyat miqrasiyanın əsas səbəbinə çevrildi. Miqrasiyanın əsas istiqaməti Şimali və Cənubi Amerika olaraq qalırdı. Miqrasiya axınları həmçinin Avstraliya, Yeni Zelandiya və Cənubi Afrikaya yönəlmişdi.

Əhalinin miqrasiyası müasir mərhələdə kifayət qədər mürəkkəbliyi və hərtərəfliliyi ilə xarakterizə olunur. XX əsrin əvvəlində bəşəriyyət coşqun iqtisadi, məlumat-kommunikasiya, mədəni və etnik qloballaşma proseslərini izləyir. Bu zəmində əhali miqrasiyası praktiki olaraq bütün qitə və ölkələri, bütün sosial təbəqələri əhatə edən qlobal prosesə çevrilmişdir. Ekspertlərin hesablamalarına görə, mənşə ölkələrindən kənarda 147 milyon insan yaşayır. Məşğul əhalisi arasında xaricilərin payı 20 və 30% arasında dəyişən ABŞ, Avstraliya və Kanada əvvəllər olduğu kimi miqrantları cəlb edən əsas mərkəzlərdir. Bəhreyn, Liviya, Səudiyyə Ərəbistanı, Qatar, Küveyt və BƏƏ-də də əhalinin işləyən hissəsinin təxminən bu qədər faizini xaricilər təşkil edir. Qərbi Avropa ölkələrində isə əhalinin bütün işləyən hissəsinin 10-20%-i xaricilərin payına düşür (3).

Böhranlı 90-cı illərdə urbanizasiya, əmək bazarı, əhalinin sayının artımı kimi klassik miqrasiya müəyyənedicilərinin əhəmiyyəti azaldı. Etnik amil ön plana çıxdı. Əhali bölgüsünün əsas istiqamətlərində köhnə metodlar saxlandı, lakin ölkələrin miqrant qəbul edən və miqrant ixrac edən ölkələrə bölünməsi əsasında etnik müxtəlifliklər dayandı. Miqrasiya bəzən əhali yerdəyişməsinin bir növü kimi xarakterizə edilir (4). Belə ki, N.N.Zinçenko isə qeyd edir ki, özündə müəyyən sosial birliklər çərçivəsində öz həyat fəaliyyətini həyata keçirən və cəmiyyətin əsas tərkib hissəsi olan insanların məcmusunu əks etdirən əhali cəmiyyətin hər bir inkişaf mərhələsində yeni keyfiyyət kəsb edir (5). Buna müvafiq olaraq əhali yerdəyişməsi eyni zamanda bütövlükdə cəmiyyətin ayrılmaz tərkib hissəsi olan miqrasiya prosesləri də ictimai inkişafın hər bir pilləsində keyfiyyət dəyişikliyinə məruz qalır. Yeni texniki imkanlar və istehsal üsulları, kommunikasiya vasitələrinin yaranması, sosial və geosiyasi dəyişikliklərlə əlaqədar olaraq əhali miqrasiyasının yeni tendensiyaları meydana çıxır. Bu tendensiyaların meydana çıxması yerdəyişmələr, əhalinin coğrafi baxımdan yenidən bölgüsü, eləcə də miqrasiya proseslərinin zəifləməsi və ya fəallaşması ilə əlaqədardır. Digər müəlliflər isə qeyd edirlər ki, miqrasiya mahiyyət etibarilə həyat şəraitinin dəyişilməsinə əhalinin kütləvi reaksiya verməsi üsullarından biri kimi xarakterizə olunmalıdır (6).

Əhali miqrasiyasının elmi əsasları və qanunauyğunluqları ilk dəfə olaraq XIX əsrin sonunda London Universitetində araşdırılmışdır. İngilis tədqiqatçı-alimi E.Rayvenstayn statistik məlumatların kompleks analizi nəticəsində miqrasiyanın intensivliyi və əsas istiqamətləri arasındakı qarşılıqlı asılılığı müəyyən etmişdi. Rayvenstaynın fikrincə, miqrasiyanın əsas amili iqtisadi amildir. Miqrasiya prosesi ilk növbədə insanların yaxın şəhər məskənlərinə, daha sonra isə inkişaf etmiş sənayeyə və ticarətə malik, tez böyüyən şəhərlərə axınını nəzərdə tutan mərhələli xarakter daşıyır. İki coğrafi məntəqə arasındakı miqrasiya axınının intensivliyi onlar arasındakı məsafəyə tərs mütənasibdir. Hər

bir əhəmiyyətli miqrasiya axını onu kompensasiya edən «əks axın» doğurur ki, bu da netto-miqrasiya (7) göstəricilərini azaldır. Əhalinin miqrasiyası texniki tərəqqi və kommunikasiyanın inkişafı ilə güclənməlidir (8).

E.Rayvenstaynın konsepsiyasında miqrasiya proseslərinin miqrantların iqtisadi maraqları ilə şərtlənməsi əsas yer tutur. Bununla bərabər, əhali miqrasiyasının çoxcəhətliliyini göstərmiş təcrübə və eləcə də bu fenomenin mürəkkəbliyini təsdiq etmiş müasir şəraiti nəzərə alaraq, miqrasiya prosesini şərtləndirən digər amillərin – siyasi, hərbi, demoqrafik, ekoloji və etnik amillərin də nəzərə alınması zəruridir.

Əhali miqrasiyasının bir neçə forması fərqləndirilir. Əhali miqrasiyasının formalarının təsnifatı həm onların fərqləndirilməsi üçün, həm də onlar arasında müəyyən əlaqələrin aşkar olunması üçün əhəmiyyətli məsələdir. Bu və ya digər anlayış mahiyyətcə nə qədər mürəkkəb olarsa, onun təsnifatı da o qədər müxtəlif olacaqdır. Eynilə miqrasiya proseslərinin təsnifatı da yekcins deyildir. Belə ki, tez-tez hətta bir-birinə zidd olan bir neçə təsnifat eyni zamanda təklif olunur. Buna görə də bu sahədə mövud fikir müxtəliflikləri miqrasiyanın dəqiq anlayışlarının müəyyən olunması üçün müəyyən çətinliklər yaradır.

İlk olaraq Xaira miqrantların ölkəni tərketmə səbəblərinə görə miqrasiyanın 2 kateqoriyasını fərqləndirir: istehsal və qeyri-istehsal (məs.: xidmət, istehlak, istirahət). Bundan başqa o qeyd edir ki, əgər əhali miqrasiyasının təsnifatının əsasında miqrantların inzibati-ərazi sərhədlərini keçmələri durursa, onda miqrasiyanın formaları mövcud inzibati-ərazi bölgüsü ilə müəyyən olunmalıdır. Lakin Xairadan fərqli olaraq miqrasiyanın bu təsnifatını V.V.Qucabidze məkan miqrasiyasına aid edir (9). Əmək resurslarının miqrasiyasını isə Xaira sahədaxili, sahələrarası və xalq təsərrüfatı sahələri arasında olan miqrasiya növlərinə ayırır. V.M.Çiqarev miqrasiyanı iki mühüm kateqoriyaya bölür: əsasən qaçqınlar üçün müəyyən olunan məcburi miqrasiya; başlıca olaraq əməkçi miqrantlar üçün müəyyən olunan könüllü miqrasiya. Müəllif həmçinin qeyd edir ki, miqrasiyanın ilkin əsaslarını müəyyən etmək mümkün olmadıqda bu bölgüyə məcburi-könüllü miqrasiyanı aid etmək olar (10). N.N.Zinçenko realizə üsuluna görə miqrasiyanı təşkilatlanmış, yəni dövlət və ictimai orqanların iştirakı ilə həyata keçirilən miqrasiyaya və təşkilatlanmamış, yəni hər hansı təsisat və ya orqanların təşkilati və ya maddi köməyi olmadan miqrantların öz gücləri və vasitələri hesablarına həyata keçirdikləri miqrasiya növlərinə bölür (11). Əhali yerdəyişməsinin müddətliliyinə görə, daimi (geri qayıtma nəzərdə tutulmur) və müvəqqəti (geri qayıtma nəzərdə tutulur) miqrasiya fərqləndirilir. Müvəqqəti miqrasiya isə öz növbəsində mövsümi və hərəkətli olmaqla 2 yerə bölünür. Mövsümi miqrasiya miqrantların müvəqqəti (mövsümi) ərazi yerdəyişməsini nəzərdə tutur. Miqrasiyanın bu növü bir qayda olaraq mövsümi iş artımı ilə bağlı bu və ya digər sahənin işçi qüvvəsi ilə təmin edilməsi zərurəti ilə şərtlənir. Bəzən təhsil, müalicə və istirahətlə bağlı səfərləri də mövsümi miqrasiyaya aid edirlər.

Hərəkətli miqrasiya isə əhalinin bir məntəqədən digər məntəqəyə iş və ya təhsillə bağlı müntəzəm hərəkətini nəzərdə tutur. Hərəkətli miqrasiya əsasən şəhər kənarında yaşayan əhalini cəlbetmə mərkəzləri olan iri şəhərlər üçün xarakterikdir. İnsanlar yerdəyişməyə sövq edən

səbəblərə görə bəzən miqrasiyanı könüllü və məcburi növlərə bölürlər. Könüllü miqrasiyaya öz daimi yaşadığı dövləti könüllü olaraq tərk edən və digər dövlətin ərazisində yeni yaşayış yerinə köçən insanların yerdəyişməsi aid olunur. İnsanların sığınacaq axtarmaq məqsədilə yerdəyişməsi isə məcburi miqrasiya hesab olunur.

Müvafiq olaraq miqrasiyanı iqtisadi, siyasi, hərbi, etnik, demoqrafik və s. növlərə bölmək məntiqi olardı. Sadalanan miqrasiya formalarına isə könüllü və məcburi miqrasiya aid edilir. Bununla belə, qeyd etmək lazımdır ki, miqrasiya prosesləri sahəsində bəzi tədqiqatçılar əmək miqrasiyasını bütövlükdə könüllü miqrasiya kimi nəzərdən keçirirlər (12). Lakin əmək miqrasiyası heç də həmişə könüllü yerdəyişmə olmur. Miqrasiyanın daha bir təsnifatı onun tiplərə görə təsnifatıdır. Belə ki, miqrasiyanın əsas əlamətlərindən biri dövlət və ya inzibati-ərazi sərhədlərinin keçilməsi ilə bağlıdır. Bu əsasda daxili və xarici miqrasiya fərqləndirilir. Daxili miqrasiya – insanların müəyyən bir dövlətin ərazisi hüdudlarında öz yaşayış yerlərini daimi və ya müvəqqəti dəyişmək məqsədilə etdikləri yerdəyişmələrdir. Buraya kənd və şəhər arasında əhali mübadiləsi, eləcə də dövlətin iri inzibati-ərazi vahidləri hüdudlarında yerdəyişmələr aiddir. Xarici miqrasiya əsasən insanların öz daimi yaşayış yerlərini dəyişmələri ilə əlaqədar olaraq dövlət sərhədlərini aşmalarıdır. Xarici miqrasiyanı bəzən beynəlxalq miqrasiya da adlandırırlar. Beynəlxalq miqrasiyanın baş vermə səbəblərinə görə ən uğurlu təsnifatlardan biri iqtisadçı alim E.Balatskinin «əhalinin ölkələrarası miqrasiyası»nın «əmək və qeyri-əmək miqrasiyası» kimi müəyyən etdiyi təsnifatdır (13). Bəzən xarici miqrasiyanın bir növü kimi, qeyri-qanuni və ya qeyri-leqal miqrasiya, yəni ölkə ərazisinə gələn, orada qalan və onun ərazisindən çıxan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərin həmin ölkənin xarici vətəndaşların gəlmə, qalma, tranzit keçidi və getməsi qaydalarını tənzimləyən qanunvericiliyini pozması, eləcə də həmin ölkə ərazisində olma dövründə öz hüquqi vəziyyətini kortəbii olaraq dəyişməsi ilə səciyyələnən miqrasiya göstərilir. Məs., MDB çərçivəsində qeyri-qanuni miqrasiya ilə mübarizə haqqında Sazişin birinci maddəsində deyilir ki, qeyri-qanuni miqrantlar milli qanunvericiliyin tələblərini pozmaqla Birlik üzvlərindən birinin ərazisinə gələn şəxslər hesab olunur (14).

Təbiətinə görə qeyri-leqal miqrasiyanın əhatə dairəsini müəyyən etmək çox çətin olur. Buna görə də qeyri-leqal miqrasiya fenomeninin dəqiq həddini müəyyən etmək də çətindir. Lakin artıq məlum olduğu kimi 1970-ci illərin ortalarından etibarən qeyri-leqal miqrasiyanın səviyyəsi xüsusilə inkişaf etmiş ölkələrdə yüksəlməyə başladı. Bununla bərabər, qeyri-leqal miqrasiyanın daha da genişlənməsi qəbul edən ölkələrdə sərt miqrasiya siyasəti tendensiyasının genişlənməsi ilə nəticələndi. Qəbul edən dövlətlərdə baş verən anti-immiqrasiya çıxışları və miqrasiyanın siyasiləşdirilməsi kontekstində əksər hökumətlər miqrasiya siyasətində qeyri-qanuni miqrasiyanın əsas ünsürlərindən olan qaçaqmalçılığın qadağan olunması üzrə müəyyən tədbirlər görməyə başlamışlar. Qeyri-qanuni miqrasiya ilə mübarizə məqsədilə görülən əsas tədbirlərə məlumatların yayılması, viza verilməsi, daşıma sanksiyaları, sənədlərin yoxlanılması və sərhəd yoxlamaları, eləcə də qeyri-qanuni xaricilərə, qaçaqmalçılara və işəgötürənlərə münasibətdə sanksiyaların müəyyən olunması və s. bu kimi tədbirlər daxildir.

Qeyri-qanuni miqrantların saxlanması üzrə məlumatların yayılması qəbul edən dövlətlərin əksəriyyəti tərəfindən mənşə və tranzit dövlətlərə münasibətdə həyata keçirilir. Belə məlumatlar qadınların fahişəliyə cəlb olunması ilə əlaqədar olaraq sərhəddən keçirilməsi məsələsində xüsusilə əhəmiyyətli şəkildə həyata keçirilməlidir. Bu kontekstdə qəbul edən dövlətlərdəki vəziyyət barədə məlumatların yayılması qadınların qeyri-qanuni daşınmasına, eləcə də ümumilikdə qadınların miqrasiyasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Hökumətlər həmçinin qeyri-qanuni miqrasiya axınlarının qarşısının alınması məqsədilə viza sistemi də müəyyən edirlər. Bir çox hökumətlər viza verilməsi üçün sərt tələblər müəyyən etmişlər. Eyni zamanda, bəzi dövlətlər qeyri-qanuni miqrantların məxsus olduqları dövlətlərin üzərinə viza təminatı ilə bağlı öhdəliklər qoyurlar (15). Dəniz məkanları da tez-tez cinayətkar qruplaşmalar tərəfindən bir dövlətdən digər dövlətə qeyri-qanuni miqrantların daşınması üçün istifadə olunur. Bu hal dəniz gəmiçiliyi sferasında fəaliyyət göstərən beynəlxalq orqanların və ekspertlərin qiymətləndirmələri ilə də bir daha təsdiq olunur (16).

Beləliklə, miqrasiyanın qanuniliyi və ya qeyri-qanuniliyi, ilk növbədə, şəxsin bu və ya digər dövlətin ərazisində nə dərəcədə hüquqauyğun olması ilə müəyyən olunur (17). Əhalinin beynəlxalq miqrasiyasının əsas qruplarının ilk təsnifatı Əhali və Statistika üzrə BMT Komissiyasında işlənib hazırlanmış və 1953-cü ilin aprelində BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən qəbul olunmuş «Beynəlxalq miqrasiya statistikasının yaxşılaşdırılması barədə» tövsiyə ilə müəyyən olunmuşdur. Bu təsnifatda əhali miqrasiyasının 8 qrupu əks olunmuşdur (18). 1972-ci ildə isə BMT çərçivəsində beynəlxalq miqrasiya sahəsində əvvəlki tövsiyələrin yenidən yoxlanılmasına başlanıldı.

Əhalinin beynəlxalq miqrasiyası anlayışının bu və ya digər müasir təsnifatının xüsusiyyətləri: emiqrant – immiqrant; əcnəbi əhali – xaricdə anadan olan şəxslər; əməkçi miqrantlar – öhdədə olan miqrantlar; könüllü miqrasiya – məcburi miqrasiya; qaçqınlar – məcburi köçkünlər; sığınacaq axtaranlar – ekoloji qaçqınlar; «beyin axını» – intellektual miqrasiya; mövsümi miqrantlar – işçi cəbhələri; köçərilər – səyahət edən şəxslər və başqaları. Lakin bu anlayışlar barədə nə dünya, nə də dövlət səviyyəsində hələ də vahid fikir yoxdur. Məs.: 1980-ci ildə Əhali yerləşdirilməsi üzrə Fransa Ali Komitəsi tərəfindən 2015-ci ilə qədər əcnəbi əhalinin inkişaf perspektivləri barədə hesabatını nəşr etdirdi. Hesabatın üçüncü hissəsində bu kateqoriyadan olan 10-a qədər termindən istifadə olunmuşdur (19): miqrant, immiqrant, əcnəbi, immiqrant əhali və s.

Azərbaycan Respublikasında isə başvermə səbəblərindən, tənzimlənmə metodlarından və onların həlli üsullarından asılı olaraq müxtəlif xüsusiyyətli miqrasiya tiplərini özündə birləşdirən daxili və xarici miqrasiya axınları mövcuddur. Daxili miqrasiya axınlarının AR-də aşağıdakı formaları vardır: məcburi miqrasiya; sosial-iqtisadi miqrasiya (20). Ölkədaxili məcburi miqrasiyanın əsas subyektini Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağdan və ona bitişik olan digər ətraf rayonlardan, habelə Ermənistan Respublikası ilə həmsərhəd rayonların həyat üçün

təhlükəli olan yaşayış məntəqələrini tərk etmiş məcburi köçkünlər təşkil edir. Sosial-iqtisadi miqrasiya təbii fəlakətlərlə bağlı ekoloji miqrantların yaranması, eləcə də kənd rayonlarından əmək qabiliyyətli əhalinin iş yeri tapmaq məqsədilə iri şəhərlərə, xüsusilə Bakıya və onun yerləşdiyi Abşeron yarımadasına axını ilə bağlıdır. Son vaxtlar Azərbaycan Respublikasında həyata keçirilən mühüm iqtisadi inkişaf proqramlarının həyata keçməsi kənd rayonlarından əmək qabiliyyətli əhalinin iş yeri tapmaq məqsədilə iri şəhərlərə axınını xeyli zəiflətmişdir.

AR vətəndaşlarının qeyri-leqal miqrasiyasına gəldikdə isə, bu məsələ daha çox AR vətəndaşlarının Qərbi Avropa dövlətlərində qeyri-leqal olaraq qalmalarına münasibətdə öyrənilir. Bunun üçün Qərbi Avropa dövlətlərində qalan azərbaycanlıların könüllü surətdə vətənə qayıtmalarına köməklik məqsədilə Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə «Klaster təklifi» adlı Proqram üzrə bir sıra tədbirlər həyata keçirilmiş, həmin dövlətlərlə «Readmissiya haqqında» Sazişlərin bağlanması imkanları öyrənilmiş və bu proses hazırda da davam etməkdədir (21).Yuxarıda qeyd olunanları ümumiləşdirərək, beynəlxalq miqrasiyaya dair ən təkmil təsnifatı belə müəyyən etmək olar: təhsil və professional təlim keçmək məqsədilə başqa dövlətdə qalmağa icazəsi olan əcnəbilər; işləmək məqsədilə başqa bir dövlətdə qalmağa icazə verilən əcnəbilər – Əməkçi-miqrantlar. Əməkçi-miqrantların kifayət qədər müxtəlif kateqoriyaları mövcuddur; öz ailələrinə qovuşmaq və ya ailə qurmaq məqsədilə gələn miqrantlar – ölkə ərazisində olan əcnəbilərin yaxın qohumları olan və ya yerli vətəndaşlarla, həmçinin həmin ölkə ərazisində artıq məskunlaşmış əcnəbilərlə ailə qurmaq məqsədilə gələn əcnəbilər; immiqrant (yaxud mühacir-miqrantlar) – uzunmüddətli və ya geri qayıtmamaq şərtilə ölkə ərazisində qalmağa icazə verilən şəxslər; humanitar əsaslarla dövlət ərazisində qalmağa icazəsi olan əcnəbilər (qaçqınlar); digər məqsədlərlə müəyyən dövlətin ərazisinə gələn əcnəbilər (məsələn, turistlər və s). Müasir dünyada ölkələr arasında qarşılıqlı iqtisadi-siyasi münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsi, iqtisadi, sosial-mədəni həyatın beynəlmilləşməsi, həmçinin milli, irqi, dini və digər regional münaqişələrin, fövqəladə vəziyyətlərin və təbii fəlakətlərin doğurduğu problemlərin əhalinin kütləvi miqrasiyası ilə müşayiət edilir. Bu da öz növbəsində dünya ölkələrinin inkişafı və milli təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlarına uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsini, dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri edir. Ümumilikdə, miqrasiya siyasətinin əsas məqsədlərini dövlətin milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin mənfi nəticələrinin qarşısının alınması, miqrantlara hüquqların həyata keçirilməsi üçün şəraitin yaradılması təşkil edir. Bunun üçün miqrasiya siyasətinin qarşısında müəyyən vəzifələr dayanır: miqrasiya proseslərindən ölkənin inkişafı üçün səmərəli istifadə olunması; miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində dövlətin, cəmiyyətin və insanların mənafelərinin nəzərə alınması; qeyri-qanuni miqrasiyanın qarşısının alınması; miqrantların mövcud sosial-iqtisadi vəziyyətə uyğunlaşdırılmasına təkan verəcək şəraitin yaradılması və miqrantların hüquqlarının müdafiəsi

(22).

İşçi qüvvəsinin beynəlxalq miqrasiyası prosesi müxtəlif dövlətlərin milli qanunvericiliyi və beynəlxalq hüquqi aкtlarla tənzimlənir. Milli qanunvericiliкdə iкi tendensiya öz əкsini tapmışdır: açıq iqtisadiyyat və buna müvafiq olaraq əməк ehtiyatlarının sərbəst yerdəyişməsi; proteкsionizm və beynəlxalq miqrasiya sahəsində məhdudiyyətlər. Əməк miqrasiyası sahəsində dövlət miqrasiya siyasəti işçi qüvvəsinin ixracı və idxalı proseslərinin tənzimlənməsi üzrə dövlətin məqsədyönlü fəaliyyətidir (23). Qeyd etməк lazımdır кi, özünün daxili iqtisadi şəraitini nəzərə almaqla, işçi qüvvəsinin axınının tənzimlənməsi üzrə tədbirlər hazırlayır. Belə кi, miqrasiya proseslərinin tənzimlənməsinin əsas xüsusiyyəti ondan ibarətdir кi, bu sahədə üstünlüк dövlətlərə verilir. Laкin Beynəlxalq Əməк Təşкilatı (BƏT) da ixrac edən dövlətlərin emiqrasiya siyasətinin bir sıra məqsədlərini müəyyən etmişdir (24): əməк ehtiyatlarının emiqrasiyası işsizliyin aradan qaldırılmasına və əməкçi-miqrantların valyuta gəlirlərinin ölкəyə daxil olmasına şərait yaratmalıdır; xarici ölкələrdə əməк fəaliyyəti ilə məşğul olan emiqrantlara əlverişli həyat şəraiti yaradılmalıdır və s.

Miqrasiyaya dair mənbələrdə dövlətin miqrasiya siyasətinin iкi növü fərqləndirilir: müxtəlif məqsədlərə və tənzimetmə metodlarına maliк emiqrasiya siyasəti və immiqrasiya siyasəti. Dövlətin emiqrasiya siyasəti əlverişli emiqrasiya mühitinin yaradılmasına, eləcə də emiqrasiya axınlarının həcminin və struкturunun tənzimlənməsinə istiqamətlənir. İmmiqrasiya siyasəti isə milli əməк bazarını idarə olunmayan miqrant axınından müdafiə etməк və onların əməyindən rasional istifadənin təmin olunması məqsədini daşıyır (25).

Emiqrasiya axınlarının tənzimlənməsinin əsas metodları кimi bunları göstərməк olar: banк-valyuta siyasəti; gömrüк siyasəti; əməк miqrasiyası subyeкtlərinə dair tələblər; eкspansionist siyasət. İmmiqrasiya siyasəti isə xarici işçi qüvvəsinin кeyfiyyət tələbləri, yaş senzi, sağlamlıq vəziyyəti, şəxsi xaraкterli məhdudiyyətlər, işçi qüvvəsinin idxalının birbaşa кvotalaşdırılması, maliyyə məhdudiyyətləri, zaman məhdudiyyətləri, birbaşa dolayı qadağalar formasında sahəvi-peşəкar məhdudiyyətlər, milli-coğrafi üstünlüкlər, əməкçi-miqrant axınının stimullaşdırılmasına yönələn proqramlar əsasında formalaşır (26).

Hər bir dövlət səviyyəsində miqrasiya siyasətinin əsas mahiyyətini dövlətin maraqları nöqteyi-nəzərindən arzuolunmaz hesab olunan miqrasiya axınlarının qarşısının alınması məqsədilə miqrasiya yerdəyişmələri üzərində ciddi nəzarətin müəyyən olunması təşкil edir. Belə məhdudiyyətlər immiqrasiyaya nisbətən emiqrasiyaya münasibətdə daha az tətbiq olunur; bu emiqrasiya isə digər dövlətlər tərəfindən məhdudlaşdırıcı tədbirlərin tətbiq olunması ilə müşayiət olunur. Əhalinin yaşayış səviyyəsi yüкsəк olan, o cümlədən ərazisi böyüк olan dövlətlər xarici miqrasiya siyasəti ilə yanaşı, daxili miqrasiya siyasətini də işləyib hazırlayır və həyata кeçirirlər. Daxili miqrasiya siyasəti sosial-iqtisadi nöqteyi-nəzərdən əhalinin yerləşməsində regional uyğunsuzluğun optimal olaraq aşağı salınmasına istiqamətlənir (27).

Müxtəlif tarixi dövrlərdə şəraitdən asılı olaraq dövlətlərin miqrasiya siyasətində onun bu və ya digər tərкib hissəsi (emiqrasiya və immiqrasiya) üstünlüк təşкil etmişdi кi, bu da ümumiliкdə onun

mahiyyətini müəyyən edirdi. Müasir şəraitdə əksər inkişaf etmiş dövlətlər üçün əsas yeri immiqrasiya siyasəti tutur. İmmiqrasiya siyasətini müəyyən edərkən potensial immiqrantların əsas xarakterik xüsusiyyətlərini, onların milli tərkibini, peşə təhsili, ixtisas, cins-yaş tərkibini, ailə vəziyyətini nəzərə almaq lazımdır. İmmiqrasiyanın bazardakı mövcud şəraitə və demoqrafik vəziyyətə birinci dərəcəli təsirini nəzərə alaraq potensial immiqrantların son xarakteristikasına – ailə vəziyyətinə xüsusi diqqət yetirilir. Bunun bariz nümunəsi kimi İmmiqrasiya haqqında AR Qanununu göstərmək olar; belə ki, Qanuna əsasən AR ərazisinə gələn immiqrantlar doğum haqqında şəhadətnamə və ona bərabər tutulan digər sənədlərlə yanaşı, ailə tərkibi haqqında (ailə üzvlərinin adı, soyadı, təvəllüdü, məşğuliyyəti, yaşadığı və ya olduğu yer göstərilməklə) arayış, nikah haqqında şəhadətnamənin surəti, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərlə immiqrasiya edən 14 yaşından 18 yaşınadək olan uşaqların immiqrasiyası haqqında yazılı razılıq da təqdim etməlidirlər (28). 50-ci illərin sonlarında miqrasiya siyasətində baş verən ən mühüm dəyişikliklər məhz immiqrasiya siyasəti ilə əlaqədar idi. Ənənəvi olaraq immiqrasiya siyasətini həyata keçirən dövlətlər üçün yüksək ixtisaslı mütəxəssislərin immiqrasiyasının təşviqi dövrü sərt seçkili siyasət və ölkədən getmənin məhdudlaşdırılmasına, o cümlədən qeyri-leqal miqrasiyanın qarşısının alınmasına istiqamətlənən immiqrasiya siyasəti mərhələsi ilə əvəz olundu ki, bunun da əsas səbəbi müharibədən sonrakı dövrdə əmək ehtiyatlarının çatışmazlığı olmuşdur (29). 1960-80-ci illərdə immiqrasiya siyasətində əsas dəyişiklik viza rejiminin sadələşdirilməsi oldu və 5 illik vizaların verilməsi ilə yanaşı, əməkçi-miqrantların ailələrinin də onlarla birgə yaşamasına yol verilməyə başlandı. Buna görə də bu dövr üçün ixrac edən ölkələrdən böyük repatriant axını xarakterik idi; belə ki, keçmiş müstəmləkə ərazilərindən metropoliyalara 6,5 mln. insan köçmüşdü (30). Həmçinin 80-90-cı illərdə isə əmək fəaliyyəti ilə məşğul olan miqrantların artıq işə düzəlmə ölkəsində leqallaşması və tədricən yaşayış yeri əldə etmələri müşahidə olunmağa başlandı. 90-cı illərdə isə əmək miqrasiyası artıq dünya ölkələrinin siyasi transformasiyasında mühüm rol oynamağa başladı (31). Lakin bu dövrdə yeni elmi-texniki nailiyyətlərin artması ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrin əmək miqrasiyası siyasətində «seçkili yanaşma» geniş vüsət almağa başladı (32).

Bu dəyişikliklərə müvafiq olaraq milli miqrasiya qanunvericiliyində də müəyyən dəyişikliklər baş verdi. Son illərdə qəbul olunan qanunlar (1986 və 1990-cı illərdə ABŞ-da, 1988-1990-cı illərdə İtaliya və İspaniiyada, 1999-cu ildə Böyük Britaniyada və s.) əsasən qeyri-leqal miqrasiyanın qarşısının alınmasına istiqamətlənmişdi və bu qanunların qəbulundan əvvəl ölkəyə gələn, həmin ölkədə qeyri-leqal olaraq işə düzələn, lakin dövlətin daxili qanunlarına zidd olmayan həyat tərzi sürən şəxslərin leqallaşdırılmasını təmin etməyə yönəlmiş normaları ehtiva edirdi. BMT-nin tədqiqatlarına görə 90-cı illərin ortalarında formalaşmış şəraitdə dünya dövlətlərinin yarısından çoxu immiqrasiyanın səviyyəsinin saxlanması zəruriliyi fikrində qalırdı, üçdə biri onun səviyyəsinin aşağı salınmasına, yalnız 5%-i isə yuxarı qaldırılmasına çalışırdı. Emiqrasiya siyasətinə münasibətdə isə sorğu aparılmış dövlətlər arasında fikir ayrılığı yaranmışdı: emiqrasiyanın səviyyəsinin saxlanmasına dövlətlərin üçdə ikisi, aşağı salınmasına

beşdə biri, yüksəldilməsinə isə yalnız 4%-i səsləndi (33).

İnkişaf etmiş dünya dövlətlərinin müasir miqrasiya siyasətini xarakterik və ümumi xüsusiyyəti ondan ibarətdir ki, inkişaf etmiş ölkələrdən gələn miqrantlara münasibətlə inkişaf etməkdə olan ölkələrdən gələn miqrantlara münasibət bir-birilə tam ziddiyyət təşkil edir. Bir tərəfdən, 1974-cü ildən etibarən «üçüncü» dövlətlərdən gələn miqrantlara münasibətdə daima sərtləşdirilmiş immiqrasiya siyasəti həyata keçirilir. Digər tərəfdən isə, müxtəlif ittifaqlar çərçivəsində (AİB, NAFTA və s.) «şəffaf sərhədlərin» yaranması ilə bu siyasətin tam şəkildə liberallaşması baş verir. Bu mənada AİB-i xüsusilə qeyd etmək olar; belə ki, artıq 1958-ci ildən işçi qüvvəsinin AİB-in yaradılması haqqında Roma Sazişini imzalayan dövlətlərdə sərbəst yerdəyişmə rejiminin müəyyən olunması üzrə tədbirlər görülür. Bu məqsədlə 1985-ci ildə Şengen dövlətləri arasında kapitalın, malların və insanların sərbəst hərəkətinə mane olan bütün məhdudiyyətləri aradan qaldıran Şengen Sazişi imzalandı. Sazişə görə bu dövlətlər arasında miqrasiya edən şəxslərin içərisində istənilən Şengen Sazişi dövlətinə getmək üçün viza almış «üçüncü» dövlətlərin vətəndaşları da ola bilər.

Müxtəlif kateqoriya miqrantlara münasibətdə ayrı-ayrı dövlətlərin miqrasiya siyasətini təhlil edərkən onu da nəzərə almaq lazımdır ki, indiyədək «immiqrant» anlayışını unifikasiya etmək mümkün olmamışdır; bu anlayışın müəyyən olunmasında milli fərqlər mövcuddur. Belə ki, Almaniyada ölkədə yerləşmək məqsədilə sərhədi keçən şəxslər, Yaponiyada sərhəddən keçən yerli vətəndaşlar və əcnəbilər, ABŞ-da ölkəyə daimi yaşamaq məqsədilə qanuni əsaslarla buraxılan əcnəbilər immiqrant hesab olunurlar. Həmçinin «əməkçi-miqrant» (işləmək məqsədilə miqrasiya edən şəxslər), «qaçqın» anlayışlarının da müəyyən olunmasında fikir müxtəliflikləri mövcuddur. ABŞ-da «immiqrant» anlayışı praktiki olaraq «qaçqın» anlayışı ilə dəyişdirilir (34).

Lakin miqrasiya siyasətinin sərtləşdirilməsi şəraitində əməkçi-miqrantların böyük hissəsi öz ölkəsinə qayıtmaqdan imtina edir və əmək fəaliyyəti ilə məşğul olduqları dövlətə öz yaxın qohumlarının da yerləşdirilməsinə çalışırlar. Nəticədə əhalinin və əmək ehtiyatlarının miqrasiyası faktiki olaraq daimi və qaçılmaz bir prosesə çevrilmişdir (35). İnkişaf etmiş ölkələrin praktikasında daxili miqrasiya siyasətinin və məcburi miqrantlara münasibətdə həyata keçirilən siyasətin üç növünü ayırmaq olar: ABŞ modeli – burada qaçqınların ABŞ ərazisinə ilkin müvəqqəti sığınacaq ölkəsi kimi gəlməsi və amerikan cəmiyyətinə inteqrasiyasına yardım üstünlük təşkil edir; Almaniya modeli – ölkə ərazisini tərk etmiş etnik almanların qəbul edilməsi və inteqrasiyası siyasəti ilə qaçqınların müvəqqəti yerləşdirilməsi siyasətini birləşdirir; Mərkəzi və Şimali Avropa ölkələri modeli – immiqrantların qəbul edilməsi, işə düzəlməsi, inteqrasiyası üzrə və bu dövlətlərin ərazisində əhalinin yerləşdirilməsinin tənzim edilməsi üzrə şaxələnmiş sistemlərin mövcudluğu ilə xarakterizə olunur (36).

Müasir dünyanın reallıqlarına cavab verməyən xarici miqrasiya məsələlərini tənzim edən beynəlxalq hüquq normalarının mövcud olmaması hər bir dövləti onun qarşısına çıxan neqativ hallara müstəqil reaksiya göstərməyə vadar edir. Bununla yanaşı, ayrı-ayrı dövlətlərin və regionların miqrasiya siyasəti beynəlxalq hüquqla müəyyən olunmuş insan hüquqları standartlarından kənara çıxır (37). Məsələn, rus

alimləri bu barədə haqlı olaraq qeyd edirlər ki, qaçqınların statusu haqqında Konvensiya ilə müəyyən olunmuş anlayışlarda dəqiqlik olmadığından onun müddəalarının dəqiq tətbiqi istisna olunur. Buna görə də qaçqınların və daxildə köçürülmüş şəxslərin hüquqlarının müdafiəsi qanunla müəyyən olunmuş və təmin edilmiş konkret fəaliyyətdən deyil, vəzifəli şəxslərin səlahiyyətləri və diskresion qərarlarından törəmə olur (38).

Miqrasiya siyasəti dövlətin çoxsaylı miqrasion funksiyalarının həyata keçirilməsini nəzərdə tutan davamlı qanunvericilik bazasına əsaslanmalıdır (39). Dövlətin miqrasion funksiyalarını isə öz növbəsində bir neçə qrupa bölmək olar.

Birinci qrup funksiyaları bütövlükdə ölkə daxilində və onun ayrı-ayrı regionlarında miqrasiya proseslərinin proqnozlaşdırılması sahəsində fəaliyyət təşkil edir: daxili və xarici miqrasiyaya dair cari və uzun-müddətli proqnozların işlənib hazırlanması; miqrasiya sahəsində vahid informasiya sisteminin təşkili; miqrasiya problemləri üzrə elmi tədqiqatların həyata keçirilməsi.

İkinci qrup funksiyalara miqrasiya proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, büdcədən miqrasiya məqsədləri üçün ayrılan maliyyə və maddi ehtiyatların bölüşdürülməsi, miqrantların qəbul edilməsi və müvəqqəti yerləşdirilməsi məqsədilə yaradılmış məntəqələrin işinin təmin olunması, müavinətlərin ödənilməsi qaydasının müəyyən olunması aiddir.

Üçüncü qrup funksiyalar müxtəlif kateqoriya miqrantların uçotu və qeydiyyatı, o cümlədən miqrasiya nəzarətinin həyata keçirilməsi, qabaqlayıcı tədbirlərin görülməsi və nəzarətdənkənar və qeyri-qanuni miqrasiyanın qarşısının alınması ilə əlaqədardır.

Dördüncü qrup funksiyalar isə miqrantların hüquqlarının müdafiəsidir.

Beləliklə, miqrasiya siyasətinin əsas məqsədi kimi miqrasiya proseslərinin tənzimlənməsi sahəsində sabit hüquq qaydasının və qanunçuluğun yaradılmasını göstərmək olar və bu məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin həlli nəzərdə tutulur: miqrasiya sahəsində müvafiq dövlətdaxili qanunvericiliyin işlənib hazırlanması; miqrasiya proseslərinin proqnozlaşdırılması, siyasi və iqtisadi dəyişikliklər nəzərə alınmaqla effektiv dövlət miqrasiya siyasətinin formalaşdırılması; miqrasiya prosesləri üzərində effektiv dövlət nəzarətinin yaradılması; vətəndaşların yerdəyişmə azadlığı və zəruri iqtisadi stimulun yaradılması kimi hüquqların təmin edilməsi əsasında miqrasiya proseslərinin dövlət idarəçiliyinin həyata keçirilməsi; bütün kateqoriya miqrantların beynəlxalq standartlara müvafiq hüquq və azadlıqlarının təmin edilməsi, onların sosial müdafiəsi məsələlərinin həlli; dövlətin əmək ehtiyatlarına olan tələbatını nəzərə almaqla, xarici vətəndaşların dövlət daxilində muzdlu əməyə cəlb edilməsi üzrə tədbirlərin işlənib hazırlanması və kvotaların tətbiqi; ölkənin yerli əhalisində tolerant düşüncənin formalaşdırılması; ölkə daxilində əmək ehtiyatlarının bölüşdürülməsi üzrə tədbirlərin həyata keçirilməsi, vətəndaşların əmək miqrasiyasının stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması.

## ƏDƏBİYYAT

1. Демографический энциклопедический словарь. М., Сов. энциклопедия, 1985, с. 251.

2. Корнелюк О.В. Диалектика миграционных процессов / Миграция, права человека и экономическая безопасность современной России: состояние, проблемы, эффективность защиты. М., 2004, с. 232; Абашидзе А.Х. Российское законодательство и международные правила в сфере миграции / Миграция, права человека и экономическая безопасность современной России: состояние, проблемы, эффективность защиты. М., 2004, с. 95-103.
3. Ходов Л.Г. О современном состоянии миграции населения в мире // Внешнеэкономический бюллетень. 1998, № 1, с. 95.
4. Демографический энциклопедический словарь. М., Сов. энциклопедия, 1985, с. 269.
5. Зинченко Н.Н. Миграция населения: теория и практика международно-правового регулирования. М., 2003, с. 12.
6. Миграция в постсоветском пространстве: политическая стабильность и международное сотрудничество / Под ред. Д.Р. Аэрала, В. Мукомеля и Э. Паина. М., Комплекс-Прогресс, 1996, с. 23.
7. Демографический энциклопедический словарь. М., Сов. энциклопедия, 1985, с. 385.
8. Ravenstein E. The Laws of Migration // Journal of the Royal Statistical Society. 1885, June, p. 167-227; The Laws of Migration // Journal of the Royal Statistical Society. 1889, June, p. 241-301.
9. Гуджабидзе В.В. Миграция городского населения Грузии. Тбилиси, 1976, с. 31.
10. Чигарев В.М. Генезис и реализация концепции социальных прав человека (политологический аспект). М., 2002, с. 183-184.
11. Зинченко Н.Н. Миграция населения: теория и практика международно-правового регулирования. М., 2003, с. 13.
12. Москвин Л., Потемкина О. Миграционные процессы в СНГ. Социально-политический журнал. № 1, 1995, с. 34.
13. Балацкий Е. Внешняя трудовая миграция и российский рынок труда // Проблемы теории и практики управления. № 6, 1995, с. 88.
14. Международно-правовые основы борьбы с незаконной миграцией и торговлей людьми: Сб. док. / Сост. В.С. Овчинский. М., ИНФРА·М, 2004, с. 260.
15. International Migration Report 2002. New York, 2002, p. 28-30.
16. Шарафутдинова Д.К. Борьба с нелегальной миграцией на море: правовые проблемы. // Российский ежегодник международного права 2005. Санкт-Петербург, 2006, с. 354-359.
17. Зинченко Н.Н. Миграция населения: теория и практика международно-правового регулирования. М., 2003, с. 16-17.
18. Demographic Yearbook. 1954. United Nations, New-York, 1954, p. 99.
19. Borrie W.D. Australia and the European connection. The Demographic Consequences of International Migration. Saskia Voets, eds. The Hague, 1995, p. 109-110.
20. Miqrasiya bələdçisi. Azərbaycanın miqrasiya məsələləri ilə maraqlananlar uçun məlumat кitabçası. Bакı, 2004, s. 65-67.
21. Miqrasiya bələdçisi. Azərbaycanın miqrasiya məsələləri ilə maraqlananlar üçün məlumat кitabçası. Bакı, 2004, s. 67.
22. Azərbaycan Respubliкasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respubliкasının Prezidentinin Sərəncamı, 25 iyul 2006-jı il.
23. Международные экономические отношения: Учебник / Сост. А.И. Евдокимов и др. М., ТК Велби, 2003, с. 486.
24. Международные экономические отношения: Учебник / Сост. А.И. Евдокимов и др. М., ТК Велби, 2003, с. 487.
25. Акопова Е.С., Воронкова О.Н., Гаврилко Н.Н. Мировая экономика и международные экономические отношения. Ростов-на-Дону, 2000, с. 336-339.
26. Международные экономические отношения: Учебник / Сост. А.И. Евдокимов и др. М., ТК Велби, 2003, с. 484-486.

27. Миграция населения. Вып. 6: Миграционная политика. Приложение к журналу «Миграция в России». М., 2001, с. 90.
28. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, II cild, Bakı, 2004, s. 690-1.
29. Castles S., Miller M.J. The age of migration. International Population Movements in the Modern World, Second edition, London, MACMILLAN PRESS, 1998, p. 333.
30. Басик В.П. Зарубежный опыт защиты прав соотечественников: политико-правовой анализ. М., «Русский мир», 2000.
31. Молодникова И.Н. Основные этапы и методы регулирования трудовой миграции в западноевропейских странах / Трудовая миграция в СНГ: социальные и экономические эффекты. Отв. ред. Ж.А. Зайончковская. М., 2003, с. 270-285.
32. Geddes A. Immigration and European Integration. Towards fortress Europe. Manchester, Manchester University Press, 2000, p. 14.
33. Миграция населения. Вып. 6: Миграционная политика. Приложение к журналу «Миграция в России». М., 2001, с. 88-89.
34. Миграция населения. Вып. 6: Миграционная политика. Приложение к журналу «Миграция в России». М., 2001, с. 89.
35. Цапенко И. Социально-политические последствия международной миграции населения // МЭМО. 1999, № 3, с. 52.
36. Миграция населения. Вып. 6: Миграционная политика. Приложение к журналу «Миграция в России». М., 2001, с. 92.
37. Матвеева Т.Д. Международно-правовые аспекты проблем миграции / Миграция, права человека и экономическая безопасность современной России: состояние, проблемы, эффективность защиты. М., 2004, с. 293-299.
38. Андриченко Л.В. Международно-правовая защита беженцев и лиц, перемещенных внутри страны / Миграция, права человека и экономическая безопасность современной России: состояние, проблемы, эффективность защиты. М., 2004, с. 132.
39. Морозова Л.А. Миграционная деятельность современного Российского государства (Общеправовые вопросы) / Миграция, права человека и экономическая безопасность современной России: состояние, проблемы, эффективность защиты. М., 2004, с. 321.

## МИГРАЦИОННАЯ ПОЛИТИКА ГОСУДАРСТВА И ПРОБЛЕМА ИНОСТРАНЦЕВ

**А.И.АЛИЕВ**

### РЕЗЮМЕ

Статья «Миграционная политика государства и проблема иностранцев» проанализирована на основе существующего разлиция в международной юридической литературе и международной практике. Главная цель миграционной политики государства – создание юридического законодательства в урегулировании миграционных процессов и для того, чтобы достичь этой цели нужно решить нижеследующие проблемы: подготовк4а определенного национального законодательства относительно миграции; прогнозирование миграционной политики; формирование эффективной государственной политики миграции; обеспечение прав и свобод мигрантов и решения социальных проблем всех категорий мигрантов согласно международным стандартам; подготовка мер и применение квот при вовлечении иностранных граждан к трудовой миграции; осуществление мер на распределении трудовых ресурсов в государстве; подготовка механизмов на стимулирование трудовой миграции.